

*Biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik. Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir. Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Göygöl rayonunda suvarma ilə bağlı problemlərin həlli diqqət mərkəzindədir

***Havalar isindikcə suvarmaya tələbat da artır. Təbii ki, hər bir fermer, hətta kiçik bir torpaq sahəsi olan kənd adamı da bol məhsul götürmək istəyir, çəkdiyi zəhmətin bəhrəsini gözləyir. Bu məqsədə çatmaq isə o qədər də asan deyil. Əziyyət çəkməklə məsələ bitmir. Su yoxdursa və ya kifayət qədər deyilsə, heç nəyə nail ola bilməyəcəksən.***

***Bəs bu gün Göygöl rayonunda vəziyyət necədir? Sudan narazılıq edənlərin sayı artıb, ya azalıb? Əkinçilər hansı problemlərlə üzləşirlər? Bu sualların cavabını almaq üçün əvvəlcə rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Turani Əliyevlə əlaqə saxladıq. Məsləhət bildi ki, kəndlərdə olaq, adamlarla söhbət edək, vəziyyəti öz gözlərimizlə görək. Belə də etdik.***

...Göygöl Suvarma Sistemləri İdarəsində ilk müsahibimiz mühəndis-hidrotexnik Məhəbbət Məmmədov oldu. Uzun illərdir burada çalışır. İdarənin göstəricilərini əzbərdən bilir, yerlərdəki vəziyyətdən, problemlərdən xəbərdardır. Deyir ki, su elə bir nemətdir ki, ona gərək kəm baxmayasan, oğurluq etməyəsən, bölüşdürəndə mizan tərəzini ortaya qoyasan, "doğma-ögey" söhbətini unudasan...

Bir azdan idarənin rəisi İlqar Məhərrəmov da gəlib çıxır və söhbətə qoşularaq mövzunu bir qədər də genişləndirməyə çalışır:

–Nə qədər ədalətli olsan da hamını eyni cür razı salmaq olmur. Mütləq kimsə narazı qalacaq, gileylənəcək. Kəndin adını çəksəm, biləcəklər kimdən söhbət gedir. Dörd qardaşdırlar. Dördünün də əkin sahələri yanaşı. Di gəl, su veriləndə aralarında dava düşür. Əlindəki bellə digərinə hücum çəkən kim, hədə-qorxu gələn kim...

İdarə rəisi deyir ki, bütün bunlara baxmayaraq biz təmkinli olmağa çalışırıq, öz işimizi görürük, problemləri tədricən həll edirik, nasos stansiyalarında lazımi şərait yaradırıq, onların fasiləsiz işləməsinə nail oluruq. Suyun bölgüsündə kəndlərdə fəaliyyət göstərən assosiasiyalarla əlaqəli işimiz bizə imkan verir ki, vəziyyətə daim nəzarət edə bilək, yerlərdəki problemləri öyrənək.

İlqar Məhərrəmovla birlikdə bir neçə nasos stansiyasına baş çəkirik, beton üzlüyə alınmış kanallara baxırıq. Əslində, rayon üzrə 1462 kilometr kanalın yalnız 20 kilometrinin beton üzlüyə alınması olduqca kiçik bir rəqəmdir. Qalan hissənin torpaq kanal olmasını nəzərə alsaq, su itkisinə yol verilməsinin əsl səbəbi bəlli olur. Hazırda Göygöldə bu itkinin təxminən, 30 faizə yaxınlaşması ciddi problemdir. Son 5 ildə Xan arxı və Ərəbli kanallarının müəyyən hissəsinin betonlanması diqqətçəkən işlərdən olsa da, dəryada damlaya bənzəyir. Təbii ki, bütün bunlar böyük maliyyə vəsaitləri tələb edən işlərdir. Lakin hər il bu məsələyə lazımi diqqət yetirilsəydi indi vəziyyət daha ürəkaçan olardı.







Bəzi yerlərdə plastik borulardan istifadə etməklə vəziyyətdən çıxış yolu tapılıb. Bu isə idarə kollektivinin məsələyə laqeyd yanaşmadığını, su itkisinin qarşısını almaqla yanaşı, adamların suya olan tələbatını nisbətən ödəməyə nail olduğunu göstərir. Torpaq kanaldan ibarət olan Dozular kanalında aparılan əsaslı təmir işləri və burada plastik borudan istifadə olunması vəziyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşdırıb.

Nasos stansiyalarında yaradılmış şərait ürəkaçandır. Əvvəllər bu vacib obyektlər baxımsız vəziyyətdə olub, işçilər üçün heç bir şərait yaradılmayıb, texnika yağışın, suyun altında "işləyib". Çaylı nasos stansiyası tamamilə yenidən qurulub.Stansiyadan 600 metr uzunluğunda boru kəməri çəkilib ki, bu da 480 hektar sahəni suvarmağa imkan verir.

Müxtəlif kəndlərdə də olduq. Razılıq edən də oldu, gileylənən də. Amma hara getdiksə, Göygöldə son illərdə qazılan artezianlara görə adamlar ölkə Prezidentinə hədsiz minnətdarlıqlarını bildirdilər. Təkcə keçən il bu rayonda 10 quyunun qazılıb istifadəyə verilməsi minlərlə təsərrüfatçını sevindirib. Balçılı kənd sakini Asif Abbasovun 50 hektar, Xəqani kəndinin sakini Taleh Məmmədovun 70 hektar, Yeni Qızılca kəndinin sakini Rəşad Qurbanovun 18 hektar buğda sahəsi var. Söhbət zamanı dedilər ki, insanları qayğısına qalmaq, onların problemlərini həll etmək təkcə xeyirxahlıq, diqqət deyil, həm də savabdır.

Rayon suvarma sistemləri idarəsinin kollektivi 15 min 200 hektar əkin sahəsinin vaxtında suvarılması üçün bütün imkanlardan maksimum istifadə edir. Göygöl və Gəncə ərazisindən keçən Xanarxın torpaq hissəsinin beton üzlüyə alınmasını yuxarıda qeyd etdik. Sel və daşqınların qarşısını almaq üçün hazırda Gəncəçay, Kürəkçay və Qoşqarçayın məcralarının təmizlənməsi işləri də davam etdirilir. Xanlar, Qızılca, Nadel, Mollaosman, Bəhrəmbəy arxlarının isə dəhnələri möhkəmləndirilib. Xanarx kanalının Üçtəpə ərazisindən keçən hissəsində kanalın torpaq hissəsi beton üzlüyə alınır. Bu işlərlə yanaşı, uzun illər sudan çətinlik çəkən rayonun Haçaqaya kənd sakinlərinin su probleminin aradan qaldırılması istiqamətində işlərə başlanılıb. Kənd əhalisi əkin sahələrini bu günə qədər maşınlarla gətirilən su hesabına təmin edirdilər. Amma kənddə yeni qazılan subartezian quyusunun işə düşməsi, heç şübhəsiz, bu problemi həll edəcəkdir.

Hazırda Gəncə şəhəri də daxil olmaqla Göygöl rayonunda olan 285 subartezian quyusu ilə 4880 hektar ərazi suvarılır. Haçaqaya ərazisində qazılan subartezian quyusu isə 20 hektar ərazinin suvarılmasını təmin edəcək. 2020-ci ildə rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etmək, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına zəmin yaratmaq məqsədilə 242 subartezian quyusunda cari, 5 subartezian quyusunda isə əsaslı təmir işləri aparılmışdır. Eyni zamanda, su itkisinin qarşısının alınması, fermerlərin əkin sahələrini vaxtında suvarması üçün arxların təmizlənməsi və təmir-bərpası işləri də görülür. Nadel, Qızılca, Bəhrəmbağ, Mollaosman arxlarının və kanalların dəhnələri beton bloklar və digər vasitələrlə möhkəmləndirilir. Artıq arxların və kanalların 26 min kvadratmetrlik hissəsi kol-kosdan təmizlənib. Boru kəmərində 4 kilometr uzunluğunda, beton kanallarda isə 6 kilometrədək hissədə təmir işləri görülüb. Bundan başqa, Xan arxında, Kürəkçay və Qoşqarçayda qapalı boru şəbəkələri təmir edilib. Bütün bunlar əkin sahələrinin tam suvarılmasına şərait yaradır.

Digər bir məsələni qeyd etmək lazımdır ki, təxminən min hektar ərazinin suvarılmasında istifadə edilən 10 nasos stansiyasının daim işlək vəziyyətdə olması çox vacibdir və ona görə də bu iş ciddi nəzarətdə saxlanılır.

MDB ölkələri arasında ilk dəfə olaraq Göygöl Suvarma Sistemləri İdarəsi rayonda kənardan idarə olunan subartezian quyusu yaratmışdır. Elektrik enerjisinə qənaət etmək məqsədilə yerli mütəxəssislər tərəfindən yaradılan bu sistem artıq özünü doğruldur. Maraqlı və diqqətçəkən bir layihədir. Mütəxəssislər deyirlər ki, il ərzində quyuların istifadəsi üçün 20 milyon kilovat enerji sərf olunur. Lakin bu qurğu vasitəsilə həmin sərfiyyatı yarıyadək endirmək mümkündür.

... Keçən il Göygöl rayonunda suvarılan sahələrdə 2872 hektar taxıl, 3718,5 hektar yem qarğıdalı, 1356 hektar bostan-tərəvəz , 2513 hektar çoxillik bitki, 854,5 hektar şəkər çuğunduru və günəbaxan yetişdirilib, 4061 hektar həyətyanı sahələrin suvarılması təmin olunub.

Göygöl rayonunda suvarma suyu ilə bağlı görülən işlər az deyil. İdarənin rəisi İlqar Məhərrəmov da təcrübəli meliaratordur. Çalışır ki, adamlar narazı qalmasınlar. Problemlər, müəyyən nöqsanlar da mövcuddur. Lakin ən sevindirici hal budur ki, həmin problemlərə laqeydlik yoxdur. Onlar tədricən aradan qaldırılır.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***